**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**
**İQTİSADİ ARAŞDIRMALAR ELMİ-TƏDQİQAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**TURAL SÖHBƏT OĞLU BABAYEV**

# AZƏRBAYCANIN XARİCİ TİCARƏT POTENSİALININ GENİŞLƏNDİRİLMƏSİNDƏ İNVESTİSİYA AMİLİNİN ROLU

**İxtisas: 5312.01 -** "Sahə iqtisadiyyatı"

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2014**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** - iqtisad elmləri doktoru, professor
**Rasim Tapdıq oğlu Həsənov**

**Rəsmi opponentlər:** - iqtisad elmləri doktoru, professor
**Mübariz Məmmədhüseyn oğlu Bağırov**

- iqtisad elmləri namizədi
**Mais Xəlil oğlu Köçərli**

**Aparıcı təşkilat:** Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu

Dissertasiya işinin müdafiəsi "31___" 10______2014-cü il tarixində saat______da Azərbaycan Dövlət İqtisad Universiteti nəzdindəki İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün D.02.052 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6, Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutu

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___"____________ 2014-cü il tarixində göndərilmişdir.

**D.02.052 dissertasiya**
**şurasının elmi katibi**
**iqtisad elmləri namizədi, dosent** **N.M.İsmayılov**

## Dissertasiya işinin ümumi xarakteristikası

**Mövzunun aktuallığı.** Dünya iqtisadiyyatının müasir inkişaf mərhələsində təsərrüfatçılıq fəaliyyətinə təsir edən amillərin sayı və xarakteri daima dəyişməkdədir. Elmi-texniki tərəqqinin birbaşa və dolayı effektləri sayəsində yaranan yeni təsir amillərinin dəyərləndirilməsinə yanaşmaların mühüm bir özəlliyi, onların klassik hesab edilə biləcək amillərə – kapital və ticarət axınlarına təsiri prizmasından qiymətləndirilməsidir. Dünya təcrübəsi sübut edir ki, iqtisadi inkişafın bütün təsir parametrləri baxımından kapital və ticarətin hərəkəti qarşılıqlı effektə malikdirlər və hətta kənar faktorlara onların təsirləri arasında ölçülə bilən və hiss ediləcək korrelyasiya vardır.

Dünya təsərrüfat sisteminin inkişafında çağdaş təsir amillərinin sayı yetərincə çoxdur. Onlar bir-birindən ciddi fərqlənsələr də, qarşılıqlı tamamlama və gücləndirmə effektinə malikdirlər. Məsələn, son 10-15 ilin təcrübəsi göstərir ki, heç bir şübhəyə yer qoymadan demək olar ki, qloballaşma prosesinin nüvəsində geoiqtisadiyyat durur. Geoiqtisadiyyat isə milli sərhədlərdən kənara çıxaraq beynəlmiləlləşmiş təkrar istehsal sisteminə əsaslanır.

Dünya ticarəti sisteminə nəqliyyat və telekommunikasiya texnologiyaları da təsir göstərir. Həmin təsir nəticəsində xammal ehtiyatlarının, əmtəə və xidmətin yerdəyişməsi çox sürətlənmiş, əmtəə dövriyyəsi bazarında keyfiyyət dəyişiklikləri baş vermişdir. Hazırda bir əməliyyat günü ərzində kapital məsafə fərqindən asılı olmayaraq bir ölkədən başqa ölkəyə, regiondan-regiona çox rahaqlıqla ötürülə bilir.

Azərbaycanın beynəlxalq ticarətdə fəal iştirak edən ölkələrdən olması, beynəlxalq kapitalın iqtisadiyatımızda təsirinin artması genişlənən inteqrasiya və qloballaşma şəraitində beynəlxalq xarici ticarət və kapital hərəkətinin müasir elmi nəzəriyyələr əsasında Azərbaycan iqtisadiyyatı kontekstində araşdırılmasını zəruri edir. Belə elmi araşdırma, ilk növbədə, beynəlxalq ticarət və kapital hərəkətinin nəzəri məsələləri, eləcə də beynəlxalq ticarət və kapital hərəkətinin əsas xüsusiyyətləri təhlil və tədqiq edilməlidir. Dissertasiya işinin aktuallığını müəyyənləşdirən əsas mülahizələr məhz yuxarıda şərh edilən məntiqə əsaslanır.

**Problemin öyrənilməsi vəziyyəti:** Azərbaycanda tədqiq edilən problemin nəzəri əsaslarının hərtərəfli öyrənilməsinə faktiki olaraq, müstəqillik dövründə başlanmışdır. Son illərdə ölkəmizdə aparılan bir sıra elmi tədqiqat işlərində beynəlxalq ticarətin problemləri, o cümlədən əsasən Azərbaycanın xarici ticarətinin mühüm məsələləri, iqtisadiyyata yatırılan xarici investisiyanın istifadəsi problemləri geniş araşdırılmışdır. Hesab edirik ki, bütövlükdə iqtisadi inkişaf amillərinin iqtisadi siyasətin

formalaşmasında iştirakı ilə bağlı ölkəmizdə aparılmış tədqiqatlar Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına üzvü inteqrasiyası prizmasından böyük elmi və praktiki əhəmiyyətə malikdir. Bu baxımdan fikrimizcə, Azərbaycanın iqtisadiyyatının dünya bazarı ilə inteqrasiya problemlərinin tədqiqinə, xarici iqtisadi əlaqələrinin formalaşdırılması, onun səmərəliliyinin artırılması və təkmilləşdirilməsinə A.A.Nadirov, Ş.H.Hacıyev, Ə.İ.Bayramov, R.T.Həsənov, A.K.Ələsgərov, İ.A.Kərimli, A.Ş.Şəkərəliyev, A.H.Səmədov, V.T.Novruzov, R.M.Əliyev, H.B.Rüstəmbəyov və d. alimlər öz dəyərli töhfələrini vermişlər.

Kapitalın beynəlxalq hərəkəti və xarici ticarət siyasətinin formalaşması ilə bağlı elmi tədqiqatlar həmçinin U.Şarp, D.Tarr, A.Kruqer, P.Lindert, M.Todaro, M.Porter, P.Kruqman, C.Stiqlits, L.Abalkin, R.Xasbulatov, A.Flipenko, İ.Famiskiy kimi alimlər və Dünya Bankı, DTT, BMT-nin Ticarət və İnkişaf üzrə Konfransı, və digər beynəlxalq təşkilatların və institutların tədqiqatçıları və mütəxəssisləri tərəfindən də mütəmadi olaraq aparılır. Lakin qeyd etməyi vacib sayırıq ki, aparılamış tədqiqatlarda, xüsusilə Azərbaycan reallıqlarında kapital və xarici ticarətin qarşılıqlı tamalayıcı və qarşılıqalı gücləndirici xüsusiyyətləri yetərincə öyrənilməmişdir. Beynəlxalq təşkilatların və xarici ölkə alimlərinin müvafiq əsərlərində isə tədqiqatların nəticələri, irəli sürülən təklif və tövsiyələr fikrimizcə kifayət qədər ziddiyyətlidir və heç də həmişə inkişaf etməkdə olan ölkələrin milli mənafeləri ilə üst-üstə düşmür. Bütövlükdə, bizim mülahizələrimizə görə müvafiq araşdırmalarda tədqiqatın mərkəzi məsələsi kimi, investisiya risklərini nəzərə almaqla kapitalın ölkələr arası hərəkəti ilə xarici ticarətin dinamikası arasında korrelyasiyanın qiymətləndirilməsinə daha geniş yer verilməlidir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi Azərbaycan iqtisadiyyatında investisiya resurslarının istifadəsi və xarici ticarətin mövcud meyllərinin qiymətləndirilməsi əsasında, davamlı inkişafın təmin edilməsi baxımından kapitalın beynəlxalq hərəkətinin xarici ticarətin genişləndirilməsinə təsirinin qiymətləndirilməsi kimi müəyyənləşdirilmişdir.

Əsas məqsədə uyğun olaraq aşağıdakı konkret tədqiqat vəzifələr müəyyənləşdirilmişdir:

- Beynəlxalq ticarət və kapital axınlarının qarşılıqlı təsirinin qiymətləndirilməsinin nəzəri metodoloji əsaslarının müəyyənləşdirilməsi;
- Qloballaşma və liberallaşmanın beynəlxalq ticarət və kapital axınlarına təsir mexanizminin dəyərləndirilməsi;
- İnvestisiya mühüti və investisiya siyasətinin xaric kapitalın cəlbi və xarici ticarətin genişləndirilməsinə təsiri mexanizminin araşdırılması;

- İnvestisiya risklərinin yaranması səbəblərinin müəyyənləşdirilməsi, aşkar edilməsi və azaldılması imkanlarının öyrənilməsi;
- Azərbaycanın beynəlxalq ticarət və kapital hərəkətində iştirakı dinamikasının qiymətləndirilməsi;
- Azərbaycan xarici ticarətinin genişləndirilməsi və səmərəliliyinin artırılmasında investisiya amilinin dəyərləndirilməsi və iqtisadi inkişaf amillərinin kompleks istifadəsi zəruriliyinin araşdırılması;
- Azərbaycan iqtisadiyyatında investisiya və xarici ticarət multiplikatoru və akselerator əmsallarının müəyyənləşdirilməsi, investisiya mühütinin yaxşılaşdırılması haqqında təklif və tövsiyyələrin müəyyənləşdirilməsi.

**Tədqiqat obyekti:** Probelmin öyrənilməsi üçün tədqiqat obyekti Azərbaycan iqtisadiyyatında investisiya və xarici ticarət fəaliyyətinin formalaşması prosesi seçilmişdir.

**Tədqiqatın predmetini** iqtisadi açıqlıq şəraitində qarşılıqlı təsirlər baxımından, Azərbaycanın investisiya və xarici ticarət siyasətinin formalaşması məsələləri təşkil edir.

**Tədqiqatın nəzəri və metodolji əsaslarını** iqtisadı nəzəriyyə və təcrübənin, xarici ticarətinin genişləndirilməsi və səmərəliliyinin artırılmasında investisiya amilinin dəyərləndirilməsi ilə bağlı, həmçinin iqtisadi inkişaf amillərinin investisiya siyasəti və xarici ticarət siyasətinin formalaşmasında rolu ilə bağlı nəzəri və elmi-təcrübi yanaşma və tövsiyyələri, Azərbaycanın investisiya mühüti, xarici ticarət fəaliyyəti və iqtisadi inkişafla bağlı hüquqi-normativ aktları təşkil edir. Tədqiqatların metodoloji bazasını onun konkret vəzifələrinə müvafiq olaraq tətbiq edilmiş elmi, o cümlədən xüsusi iqtisadi metodların geniş spektri, habelə iqtisadi inkişafla bağlı dövlət proqramları, qərar və qiymətləndirmələr təşkil etmişdir.

Dissertasiya işində iqtisadi-statistik, kompleks və faktorlu təhlil, müşahidə, ekspert qiymətləndirmələri və digər üsullardan istifadə edilmişdir.

**Tədqiqat işinin informasiya mənbələrini:** Tədqiqat işində Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi və Mərkəzi Bankı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Asiya İnkişaf Bankı, Dünya Ticarət Təşkilatı və s tərəfindən nəşr olunan hesabat, bülleten və s. materiallardan geniş istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi:** Nəzəri və təcrübi materiallar, həmçinin müəllifin yanaşması əsasında beynəlxalq ticarət və kapital axınlarının

qarşılıqlı təsirinin qiymətləndirilməsinin nəzəri metodoloji əsasları müəyyənləşdirilmişdir;

- Azərbaycanın invstisiya mühüti və xarici ticarət siyasətinin milli iqtisadi inkişaf amillərindən istifadənin səmərəliliyinin yüksəldiməsinə yönəlmiş əsas prioritet, vəzifə və vasitələri müəyyənləşdirilmişdir;
- Azərbaycanın beynəlxalq kapital hərəkəti və ticarətdə iştirakı dinamikasının, investisiya tənzimlənməsi və siyasətinin qiymətləndirilməsi verilmişdir;
- İnvestisiya fəaliyyəti ilə bağlı risklərin identifikasiyası əsasında və Azərbaycanda onların qiymətləndirilməsi aparılmışdır;
- Azərbaycan iqtisadiyyatı üçün investisiya multiplikatoru və akseleratorunın hesablanması, eyni zamanda qeyri-neft sektoruna yönəldilən investisiyaların ixraca təsiri modelləri formalaşdırılmış və realizə edilmişdir;
- Müasir şəraitdə Azərbaycanın investisiya və xarici ticarət siyasətinin formalaşdırılması və inkişaf təmayülləri araşdırılaraq, onun daha da təkmilləşdirilməsi zəruriliyi və istiqamətləri elmi-nəzəri cəhətdən əsaslandırılmışdır.

**Tədqiqatın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, işdə formalaşdırılmış tövsiyyə və konkret müddəalardan ölkənin investisiya mühütünün təkmilləşdirilməsi, investisiya və xarici ticarət siyasətinin formalaşdırılması, səmərəliliyinin artırılması və nəticə etibarı ilə iqtisadi inkişafın dinamikasının keyfiyyətinin yaxşılaşdırılmasında istifadə edilə bilər.

Dissertasiya işinin materiallarından və nəticələrindən Azərbaycan Dövlət İqtisad Universitetində və ölkənin digər ali təhsil müəsssisələrində “Xarici iqtisadi siyasət”, Beynəlxalq iqtisadi münasibətlər”, “Beynəlxalq ticarət”, “İqtisadiyyatın dövlət tənzimlənməsi”, ”İnvestisiya fəaliyyətinin təşkili və idarə edilməsi” və digər fənlərin tədrisində istifadə edilə bilər.

**İşin aprobasiyası və nəticələrin tətbiqi:** Dissertasiya işinin əsas müddəaları müxtəlif elmi nəşrlərdə dərc etdirilmişdir.

**Məqalənin nəşri:** Dissertasiya mövzusu üzrə 8 elmi məqalə dərc olunmuşdur.

**Dissertasiya işinin quruluşu və həcmi:** Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından, 3 əlavədən ibarət olmaqla və 198 səhifəni əhatə etməklə, özündə 13 cədvəli, 9 qrafik və 7 sxemi birləşdirir. İstifadə olunmuş ədəbiyyat siyahısında 128 adda mənbə göstərilmişdir.

## İşin planı

**Giriş**

**I Fəsil. Beynəlxalq ticarət və kapital axınlarının hərəkətinin qarşılıqlı təsirinin nəzəri-metodoloji əsasları**

**1.1** Beynəlxalq ticarətin nəzəri əsasları və iqtisadi inkişafda rolunun təkamülü

**1.2.**Beynəlxalq kapital hərəkətinin nəzəri əsasları və onların təkamülü

**1.3** Beynəlxalq ticarət və kapital hərəkətinin liberallaşdırılmasının qarşılıqlı təsir mexanizmi

**II Fəsil. İnvestisiya siyasətinin xarici ticarət potensialının genişləndirilməsinə təsiri**

**2.1.** İnvestisiya mühitinin kapitalın cəlb olunmasında rolu və onun yaxşılaşdırılmasının zəruriliyi

**2.2.** İnvestisiya riskləri və onun azaldılması yolları

**2.3.** Dövlətin investisiya siyasəti və onun tənzimlənməsi: mövcud olan problemlər

**III Fəsil . Azərbaycanın xarici ticarət potensialının genişləndirilməsində investisiya qoyuluşları həlledici amil kimi**

**3.1**. Azərbaycanın beynəlxalq ticarət və kapital hərəkətində iştirakının xüsusiyyətləri

**3.2.** Müasir mərhələdə Azərbaycanda davamlı inkişafın təmin edilməsində investisiya və xarici ticarətin rolu

**3.3.** Müasir inkişaf mərhələsində milli iqtisadiyyatda investisiya akseleratoru və multirlikator-akselerator effektinin təhlili

**Nəticə**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

### 1. Beynəlxalq kapital axınlarının nəzəri metodoloji əsasları

Müasir investisiya axınlarının xarakteristikasını və ölkələr arasındakı qarşılıqlı əlaqənin xüsusiyyətlərini müəyyən etmək üçün investisiya nəzəriyyələrinin ətraflı təhlili mühüm əhəmiyyət kəsb edir. Müxtəlif investisiya nəzəriyyələri mövcuddur, bu baxımdan onların müsbət və mənfi cəhətlərinin, o cümlədən ayrı-ayrı ölkələrin spesifik xüsusiyyətlərininin müəyyənləşdirilməsi xüsusən əhəmiyyətlidir. Eyni zamanda, investisiya nəzəriyyələrinin müasir təcrübə ilə nə qədər uyğunluq təşkil etməsinin müəyyənləşdirilməsi də mühüm məsələlərdən biridir. Ona görə də dissertasiyada investisiya nəzəriyyələrinin Azərbaycan timsalında müqayisəli qiymətləndirilməsi verilmişdir.

Məlum olduğu kimi inhisarçı üstünlüklər modeli S.Haymer tərəfindən hazırlanmış və sonralar Ç.P. Kindleberqer, Y.C. Conson, R. Lakru tərəfindən inkişaf etdirilmişdir. Haymerin fikrincə xarici investor yerli investora nisbətən daha az əlverişli şəraitdə mövcud olur. O, ölkənin bazarını və konyunkturunu zəif bilir, geniş əlaqələri yoxdur, əlavə nəqliyyat xərcləri çəkir və risklə üzləşir. Bu səbəbdən də ona yerli rəqiblərə nisbətən əlavə inhisarçı üstünlük lazımdır ki, o, daha yüksək gəlir götürə bilsin.

Məhz belə yanaşmaya əsasən, Azərbaycan özünün investisiya siyasətini hazırlayarkən nəzərə almalıdır ki, onun əsas rəqibləri, bir qayda olaraq, xarici investisiyanın cəlb olunmasında birinci mərhələni keçmişlər. Buna görə də onlar xarici kapitala münasibət siyasətində yeni addımlar ata bilərlər; birincisi xarici investorlar üçün qüvvədə olan stimullar və güzəştlərdə dəyişikliklər apara bilər və bu dəyişikliklər yalnız xarici yox, həm də daxili investisiya qoyuluşunu stimullaşdıran mexanizmə keçməkdə özünü əks etdirməlidir. İkinci, rəqabət aparan ölkələr, şübhəsiz, xarici investisiyaların genişlənməsi üçün yeni imkanlar axtaracaqdır.

Digər tərəfdən Azərbaycandakı investisiya iqliminin özünəməxsus cəhəti əmək bazarının differensiyasıdır. Bizim müəssislərdə işçilərin əksəriyyəti qərb standartlarına cavab vermir və yenidən hazırlığa ehtiyacı vardır. Digər tərəfdən istehsalda çalışanların, demək olar ki, hamısının orta təhsili var ki, bu da inkişaf etməkdə olan ölkələrin qarşısında böyük üstünlükdür. Azərbaycanın eyni zamanda, nisbətən ücuz elmi-texniki işçiləri, bir qayda olaraq, yüksək ixtisaslı və təcrübəli mütəxəssislərdən ibarətdir.

Oliqopolistik müdafiə modeli - yüksək rəqabətin mövcud olduğu sahələrdə bazar strukturu və liderin davranışı transmilliləşmə prosesinin mahiyyət və sürətini müəyyənləşdirə bilər. Azərbaycanın iqtisadi siyasətini müəyyən edənlər bu modeldən ölkənin bazarına daxil olan xüsusən də oliqopolik struktura malik olan müəssisələr arasında seçim etmək üçün istifadə edə bilərlər. Bununla yanaşı ictimai tenderlərdə daha çox iştirakçının olması danışıqlar zamanı hökümətin vəziyyətinin yaxşılaşmasına səbəb olur. Qeyd etmək artıq olmaz ki, investorların axtarışı zamanı siyasətçilər maksimal dərəcədə ehtiyatlı olmalıdırlar, əks halda oliqopolik nəhənglərin neqativ reaksiyası ilə qarşılaşa bilərlər. Onların seçimləri müəssisələrin hərtərəfli öyrənilməsinə (liderlik bacarığı, maliyyə imkanları, qlobal siyasət və s.) həmçinin onların məxsus olduğu ölkənin sektoral strukturunun təhlilinə əsaslanmalıdır.

Beynəlmiləlləşmə modeli - 70-ci illərin II yarsında Bankli və Kasson tərəfindən formalaşdırılmışdır. Bu nəzəriyyəyə əsasən müəssisələr

mükəmməl daxili struktura malik olduqda fəaliyyətini genişləndirə və rəqiblərini öz “nou-hau”larından uzaq saxlaya bilirlər.

Hazırda beynəlxalq operatorlar rəqabətdə üstünlüyü bir spesifik faktorun müəyyən bir sahədə istifadəsi nəticəsində deyil, öz “nou-hau”larını digər xarici müəssisələrə vermədən onu beynəlmiləlləşdirmə bacarığı nəticəsində əldə edirlər. Elmi-tədqiqat işlərinə çəkilən xərcləri çoxluq təşkil etdiyi və kapitaltutumlu istehsalın çox olduğu praktiki olaraq bütün sahələrdə (kimya sənayesi, avtomobil istehsalı) beynəlmilləlləşmə mövcuddur.

Azərbaycanda fəaliyyət göstərən şirkətləri iki qrupa bölmək olar: birinci qrupa kiçik «vençur» şirkətləri daxildir ki, bunlar ölkə bazarına nisbətən sonralar gəlmiş və bazara yiyələnmək üçün uzunmüddətli kapital qoyuluşu aparmayan şirkətlərdir. Bu şirkətlərin çox hissəsi vasitəçilik, ticarət və maliyyə əməliyyətları sahəsində fəaliyyət göstərir və beləliklə, ölkə iqtisadiyyatına nisbətən az xeyir verir. İkinci qrupa isə dünya şöhrəti qazanmış, Azərbaycan bazarında uzunmüddətli fəaliyyətinı planlaşdırmış nəhəng transmilli şirkətlərdir. Hazırda bu şirkətlərin çoxu ölkəmizin bazarında davranış strategiyasına, Azərbaycanda baş verən investisiya və iqtisadi mühitdəki dəyişikliklərə qarşı münasibətdə kifayət qədər sabit məqsədlərə malikdir. Bununla əlaqədar olaraq, onların fəaliyyətini iki hissəyə bölmək olar. Bazarın əhəmiyyətli seqmentlərini ələ keçirmək üçün özlərinin marketinq potensialından maksimum istifadə etmək, yüksək gəlir əldə etmək və istehsal infrastrukturuna, işçilərin təhsilinə, rabitə vasitələrinə uzunmüüdətli investisiya qoyuluşu həyata keçirmək. Bu qrup şirkətlər Azərbaycandakı uğurlarını gizlətməyərək fəal təbliğ edirlər.

Müasir dövrdə eklektik model böyük populyarlığa malikdir. Bu model ölkələrin mövcud olan üstünlüklərinə uyğun olaraq xarici investorlar üçün bütün beynəlmiləlləşmə formalarını izah edir. Eklektik model həmçinin ölkələrin investisiya mövqeyi üzrə inkişafa (BXİ qəbul edicidən investisiya qoyuluşlarının mənbəyinə çevrilməsi) necə nail olmalarını aydınlaşdırmağa imkan verir.

Potensial rəqiblər qarşısında Azərbaycanın öz üstünlüyü var və bundan lazımınca faydalanmaq lazımdır. Bu hər şeydən əvvəl, həm infrastruktur, həm də istehlak malları baxımından tutumlu bazarın olmasıdır. Ölkənin infrastruktur və inkişaf sahələrinin texniki modernləşdirilməsi zərurəti, məhsul və xidmət növlərinin rəqabət qabiliyyətli olmaması xarici investorların Azərbaycan bazarında perspektivlərini artırır. Digər tərəfdən, ölkədə satışın həcmi və gəlirlərin səviyyəsi inkişaf etmiş və müəyyən səviyyəyə çatmış bəzi inkişaf etməkdə olan ölkələrdən qat-qat üstündür. Daxili istehsalın tarif və qeyri-tarif

tədbirlər kompleksinin köməyi ilə proteksionist tədbirləri məhsulların yox, kapitalın idxalını stimullaşdırmağa imkan yaratmalıdır.

Dissertasiya tədqiqatları çərçivəsində müasir investisiya konsepsiyalarının təhlili nəticəsində əsas qənaətlərimiz ondan ibarərdir ki, dəyişikliklər yalnız xarici yox, həm də daxili investisiya qoyuluşunu stimullaşdıran mexanizmə keçməkdə özünü əks etdirməli; istehsal xərcləri aşağı olan qərb texnologiyaları vasitəsilə rəqabət qabiliyyətli ixrac məhsulları istehsalının təşkilinə şərait yaradılmalı; rəqabət qabiliyyətini artırmaq üçün ictimai tenderlərdə daha çox iştirakçının olmasının təmin olunmalı; Azərbaycan bazarında uzunmüddətli fəaliyyət göstərməyi planlaşdırmış nəhəng transmilli şirkətlərin fəaliyyəti stimullaşdırılmalı; istehsalın tarif və qeyri-tarif tədbirlər kompleksinin köməyi ilə proteksionist tədbirləri daha çox məhsulların yox, kapitalın idxalını stimullaşdırmağa imkan yaratmalıdır və s. Hesab edirik ki, sadalanan məqamlar Azərbaycanda investisiya siyasətinin və tarazlı iqtisadi artımının investisiya təminatının nəzəri bazasını təşkil etməlidir.

**2. Beynəlxalq ticarət və kapital axınlarının qarşılıqlı təsirinin qiymətləndirilməsi**.

Təcrübədən məlum olduğu kimi, ticarət və investisiya siyasətləri arasında sıx əlaqə mövcuddur. Nəzəri və empirik araşdırmalar bunu təsdiq edir. Səmərəli investisiya qoyuluşları ölkənin ticarət potensialının genişlənməsinə, bu isə öz növbəsində ticarət xərclərinin azalamasına gətirib çıxarır. İnvestisiya qoyuluşları ölkənin istehsal sisteminin əvəzedilməz hissəsi kimi çıxış edir.

Ticarət siyasəti müxtəlf yollarla investisiya qoyuluşlarının stimullaşdırılmasına təsir göstərir. Yüksək tarif maneələrinin mövcud olduğu hallarda onları BXİ vasitəsilə dəf etmək olar. Sözsüz ki, digər idxal maneələri də analoji təsir göstərə bilər.

Həm investor ölkə, həm də investiya qoyulan ölkə üzrə BXİ və ticarət arasındakı əlaqənin xarakterini müəyyənləşdirmək kifayət qədər mürəkkəbdir. Belə əlaqə ən sadə formada empirik göstəricilərin təhlili nəticəsində müəyyənləşdirilə bilər. BXİ qoyuluşlarına əhəmiyyətli dərəcədə təsir göstərən rəqabətin, istehsal imkanlarının, yığımın stimullaşdırılması göstəricələri bu asılılığın müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edir. Lakin BXİ ilə bağlı olan amillər ölkənin idxal və ixracının səviyyə və tərkibinə öz təsirini göstərdiyinə görə BXİ və ticarət arasındakı əlaqəni dəqiqliklə əks etdirmək müəyyən araşdırmalar tələb edir. Məsələn, məlum olduğu kimi, tarif və antidempinq siyasətinin əsas məqsədi xarici istehsalçıların xərclərini artırmaq və bunun nəticəsində yerli istehsalçıların daxili bazardakı vəziyyətini gücləndirməkdən ibarətdir. Lakin xarici müəssisə BXİ qoyuluşları vasitəsilə ticarət fəaliyyətini həyata

keçirməyə hazırlaşdığı ölkədə istehsalı qurmağı planlaşdırırsa bu ona müəyyən üstünlük qazandırır. Bu isə yerli istehsalı müdafiə etməyə yönəldilmiş xarici ticarət siyasətinin effektivliyinin azalmasına və ya başqa xarakter almasına gətirib çıxarır. Yəni, xarici müəssisə BXİ vasitəsilə ölkədə istehsalı həyata keçirirsə, bu zaman BXİ-nın qoyulduğu ölkənin xarici ticarət siyasətinin verdiyi effekt dəyişir.

Dünya təcrübəsində müasir dövrdə birbaşa xarici investisiya qoyuluşlarının liberallaşadırılması kifayət qədər ziddiyyətli müzakirə obyektinə çevrilmişdir. Sərbəst ticarət və BXİ qoyuluşları vasitəsilə iqtisadi inteqrasiya prosesinin gücləndirilməsinin tərəfdarları ölkə iqtisadiyyatını TMK-ların fəaliyyətini məhdudlaşdırmaq yolu ilə qorumağı düşünən siyasətçilərin təzyiqləri ilə üzləşirlər. Bununla belə, son dövrlərdə beynəlxalq təşkilatların nümayəndələri, BXİ-nın ixracatçıları (onlar həmçinin BXİ-nın əsas idxalatçılarıdır) və ixrac yönümlü ölkələr BXİ-nın liberallaşdıırlmasını dəstəkləyirlər. Braziliya, Hindistan, İndoneziya, Meksika və hətta Rusiyada TMK-lar hələ də müxtəlif maneələrlə üzləşirlər. Siyasətçilər partiya mənsubiyyətindən asılı olmayaraq digər ölkələrdən asılı vəziyyətə düşməkdən ehtiyatlanırlar.

BXİ ixrac edən ölkələrdə həmçinin investisiya ixracını işsizliyin səviyyəsinin artması və sənaye rəqabətinin aşağı düşməsilə əlaqələndirirlər. Lakin belə fikirlər bu sahədə aparılmış müxtəlif tədqiqatlar vasitəsilə təkzib edilmişdir. Sübut edilmişdir ki, BXİ qoyuluşlarının ümumi işgüzar aktivliyə, iqtisadi artıma və məşğulluğa müsbət sabitləşdirici təsir göstərir.

Dünya iqtisadiyyatının inkişaf tarixi göstərir ki, ümumiyyətlə məhdudiyyətlərin qoyulması və yaxud aradan qaldırılması hər bir ölkədə yaranmış iqtisadi vəziyyətdən və qlobal iqtisadi proseslərin xarakterindən asılıdır. Bu isə müxtəlif ölkələrdə tamamilə fərqli ola bilər.

**3. İnvestisiya mühitinin kapitalın cəlb olunmasında rolu və onun yaxşılaşdırılmasının zəruriliyi üzrə təhlil aparılmışdır.**

Müasir dövrdə investorların seçim imkanları kifayət qədər genişdir. Eyni zamanda hər hansı bir ölkəyə kapital qoyuluşu həmin ölkənin iqtisadi şəraitinin və siyasi iqliminin dərindən öyrənilməsini tələb edir. Müasir dövrdə iri firmalar əvvəlcə ölkənin biznes infrastrukturunu və investisiya iqlimini qiymətləndirərək investisiya qoyuluşu haqqında qərar qəbul edir.

Azərbaycanın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsinin ən mühüm vasitələrindən biri özəlləşdirmə prosesidir. Bu günədək Türkiyə, Amerika Birləşmiş Ştatları, Fransa, Böyük Britaniya, Çin, İran, İsveçrə, və bəzi digər ölkələrin investorları Azərbaycanda həyata keçirilən özəlləşdirmə prosesində iştirak etmiş və müəssisələrin

səhmlərinin ən azı 51 %-ni əldə edərək onlara böyük məbləğdə investisiya qoymuşlar

Azərbaycanda investisiya iqliminin yaxşılaşması vergi qanunvericiliyini təkmilləşdirmədən qeyri-mümkündür. Mütəxəssislərin fikrincə, xarici investisiyalara stimul vermək üçün vergilərin kütləvi şəkildə aşağı salınması düzgün deyildir. Son dövrlərdə çıxan nəşrlərdə göstərilir ki, vergi güzəştlərinin birxətli və qeyri-diferensial tətbiqi heç bir effekt verə bilməz. Belə ki, aşağı vergi dərəcələri rentabelliyi bir qədər artırsa da, əsasən bundan artıq rentabelli olan müəssisələr udurlar. Vergi güzəştlərinin xarici investisiyaları uzunmüddətli perspektivdə stimullaşdırması isə sübut olunmur. Yəqin məsələyə bu cür yanaşaraq, bir sıra postsosialist ölkələri, Macarıstan və Çexiya vergi güzəştlərindən imtina etmişlər. Lakin həmin ölkələrə investisiya axını azalmamışdır. Azərbaycana gəldikdə isə, fikrimizcə vergi güzəştlərinin və hətta "vergi tətillərinin" tətbiqi indiki şəraitdə davam etməlidir.

Xarici investisiyaların vergi vasitəsilə stimullaşdırılmasında verginin differensasiyasına və ünvanlılığının təmin edilməsi vacibdir. Qeyd edək ki, respublikamızda xarici kapitalın iştirakı ilə yaradılan birgə müəssisələrə güzəştli vergi tətbiq edilir (Nizamnamə fondunun 30%-dən artıq hissəsini xarici kapital təşkil edən müəssisələr 25% mənfəət vergisi ödəyirlər. Respublika üzrə mənfəət vergisi 35% təşkil edir). İqtisadiyyatımızın müqayisəli üstünlüklərə malik olan prioritetli sahələrini nəzərə alaraq vergi qoymanın differensiya olunmuş prinsipini tətbiq etmək düzgün olar. Xarici investisiyalara təqdim edilən güzəştlər rəqabət qabiliyyəti, yüksək texnologiya və s. tələblərlə şərtlənməlidir. Verginin, tarifin və güzəştin səviyyəsini müəyyən edərkən rəqib ölkələrdəki investisiya iqlimini öyrənmək də məqsədəuyğundur.

Uzunmüddətli investisiyalaşdırma üçün kommersiya banklarını stimullaşdırmaq üçün müəyyən vergi və hüququi güzəştlərin olması, onların fəaliyyətinin qiymətləndirilməsi və nəzarət edilməsi qaydalarının beynəlxalq standartlara uyğunlaşdırılması, əmanətlərin mükafatlandırılmasının və vəsaitlərin prioritet sahələrə yerləşdirilməsinin çevik və işlək mexanizminin, maliyyə infrastrukturunun və s. formalaşdırılması da əsas məsələlərdəndir.

**4. Azərbaycanın investisiya və xarici ticarət siyasətinin milli iqtisadi inkişaf amillərindən istifadənin səmərəliliyinin yüksəldiməsinə yönəlmiş əsas prioritet, vəzifə və vasitələri müəyyənləşdirilmişdir.**

Müasir şəraitdə dövlət investisiya siyasətinin əsas məqsədi kapital bazarında elə bir təklifin yaradılması və formalaşdırılmasıdır ki, onun səviyyəsi iqtisadiyyatı müəyyən həcm və quruluşda investisiya resursları ilə təmin edə bilsin. Belə ki, investisiya resurslarının formalaşması

təsərrüfat subyektlərinin investisiyalardan istifadənin iqtisadi səmərəliliyində maraqlarına əsaslanmalıdır. Bu məqsədlərə çatmaq üçün dövlətin səlahiyyətlərində olan büdcə, normativ və təşkilati alətlər aşağıdakı kimi qarşılıqlı əlaqəli məsələlərin həllini nəzərdə tutur:

- İnvestisiyalar üzrə sistem və xüsusi risklərin azaldılması;
- Daxili investisiya imkanlarının artırılması;
- İqtisadiyyatın strukturunda müəyyən dəyişikliklər etməklə ixrac potensialının yüksəldilməsi;
- Bank sektorunun yenidən kapitallaşması və maliyyə bazarının bütün seqmentlərinlərində rəqabətin inkişafı;
- Fond bazarının mövcud alətlərindən geniş istifadə olunması və səmərəliliyinin daha da yüksəldilməsi üçün yeni alətlərin yaradılması;
- Birbaşa xarici investisiyaların cəlb olunması.

Praktikada investisiya resurslarının əsas hissəsi neft-qaz və digər ixracat yönümlü sahələrdə cəmləşmiş, potensialı bu sahələrdən geri qalmayan emal sənayesində isə investisiya qıtlığı müşahidə olunmaqdadır. Bu isə maliyyə kapitalının bölgüsündə bazar mexanizmlərinin səmərəsiz fəaliyyəti səbəbindən baş verir.

Göstərilən çatışmamazlıqları aradan qaldırmaq üçün Azərbaycan höküməti tərəfindən müvafiq tədbirlər həyata keçirilmiş, bir sıra sahələrdə struktur islahatları aparılmış infrastrukturun inkişafı və modernləşdirilməsi təmin edilmişdir. Bu sahədə aparılan islahatlarda əsas məqamlardan biri kimi dövlətin iqtisadi tənzimləmədə iştirak payının səviyyəsi olmuşdur. Məsələn, dövlət tənzimləmə prosesində normativ və ya büdcə alətlərindən, monetar və ya struktur siyasəti kimi üsullardan istifadə olunmaqla, ÜDM-in formalaşmasında payının 20% və ya 40% səviyyəsində olması haqqında müxtəlif yanaşmalara daha çox yer verilmişdir.

Dissertasiya çərçivəsində aparılmış araşdırmalardan nəticə çıxararaq ki, hesab edirik ki, investisiya siyasətinin tənzimlənməsi üçün dövlətin qarşısında aşağıdakı vəzifələrin yerinə yetirilməsi durur:

- Normativ hüquqi rejimin stabilləşdirilməsi, investisiyaların hüquqi və institutsional zəmanət mexanizmlərinin təkmilləşdirilməsi, iqtisadiyyatın tənzimlənməsi sahəsində müxtəlif səviyyəli icra qurumları arasındakı ziddiyyətlərin aradan qaldırılması, dövlətin investisiya fəaliyyəti sahəsində islahatların davam etdirilməsi, əmtəə, xidmət və kapital bazarlarında antiinhisar nəzarətin gücləndirilməsi;
- Artım nöqtələrinin birləşdirilməsi, onların sürətli inkişafının stimullaşdırılması, birbaşa xarici investisiyaların prioritet sahələrə "konsesiya" formasında cəlb edilməsi, iqtisadiyyatın müəyyən sahələrində mövcud olan qeyri-mütəşəkkil yığımların dövlətin investisiya gətirən

şəbəkədəki layihələrə transformasiyası, xarici ticarətin liberallaşdırılmasının gücləndirilməsi, kapitalın ixracı prosesinə təkan verilməsi.

Hesab edirik ki, dövlətin investisiya siyasətinin strateji məqsədi iqtisadiyyatın modernləşdirilməsidir. Bu məqsədə nail olmaq üçün ilk növbədə aşağıdakı məsələlər həll olunmalıdır:

· istehsalın texnoloji səviyyəsinin yüksəlməsi;

· iqtisadiyyatın keyfiyyətcə yeni strukturunun təmin olunması;

· xarici iqtisadi əlaqələri təmin edən rəqabətə davamlı kənd təsərrüfatı və emal sənayesinin yaradılması;

· yüksək keyfiyyətli investisiya məhsulları və xidmətlərlə iqtisadiyyatın tələblərini təmin edəcək yüksək texnoloji investisiya kompleksinin yaradılması.

Dünya təcrübəsi göstərir ki, informasiya texnologiyalarından geniş istifadə olunması ölkənin hərtərəfli inkişafına xidmət edir və məhz bu texnologiyalar əhalinin sosial-iqtisadi vəziyyətində mövcud olan problemlərin həll olunması və yoxsulluğun azaldılması üçün tutarlı vasitələrdəndir.

Araşdırmalar göstərir ki, bu sahə üzrə bir sıra çətinliklər də mövcuddur.Əsas problemin mahiyyəti ondadır kı, Azərbaycanda elmi-tədqiqat sektorunun strukturu və inkişaf tempi ölkə iqtisadiyyatının inkişaf tempinə və sahibkarlığın yeni texnologiyalara artan tələbinə cavab vermir. Elmi-tədqiqat sektorunun təklif etdiyi bir çox dəyərli nəticələr tarazlaşdırılmamış innovasiya siyasəti ucbatından ölkə iqtisadiyyatında tətbiqini tam mənada tapmır. Yerli elmi xidmətlər və elmtutumlu məhsullar bazarının miqyası kiçikdir və əksər müəssisələrin elmi yenilikləri "almaq" üçün kifayət qədər imkanları yoxdur. Bu şəraitdə dövlət bu sahə üzrə əsas maliyyə dəstəkləyicisi və koordinator qismində çıxış etməlidir. Eyni zamanda, keçid dövründə iqtisadiyyatın dayanıqlı inkişafı ölkədə müvafiq qanunvericilik aktlarının yaradılmasından, qanunların işləməsindən, siyasi sabitlikdən, təhlükəsizlikdən, mülkiyyət hüquqlarının qorunmasından yüksək dərəcədə asılıdır.

**5. İnvestisiya fəaliyyəti ilə bağlı risklərin identifikasiyası və Azərbaycanda onların qiymətləndirilməsi aparılmışdır.**

İnvestisiya layihələrinin həyata keçirilməsi zamanı rasional idarəetmə qərarlarının qəbul edilməsində risk amilinin düzgün qiymətləndirilməsinin mühüm əhəmiyyəti vardır. Xüusilə son illərdə beynəlxalq münasibətlərin inkişafı və bununla əlaqədar xarici investisiya qoyuluşlarının artması nəticəsində müəssisələr bu sahə üzrə fəaliyyətlərində daha çox qeyri-müəyyənliklərlə üzləşirlər. Bu vəziyyət xarici investisiya yatırımları edən müəssisələrin investisiya qoymağı

planlaşdırdıqları ölkələrin risklilik səviyyəsinin qiymətləndirilməsinə və riskin idarəedilməsi fəaliyyətinin inkişafına səbəb olmuşdur. Son illərdə dünya iqtisadiyyatında daha tez-tez baş verən müxtəlif xarakterli böhranlar, o cümlədən 2008-ci ilin II yarısından başlayan, hələ də davam etməkdə olan sonuncu qlobal böhran riskin idarəedilməsinin xarici fəaliyyətlə məşğul olan müəssisələr üçün nə qədər vacib olduğunu bir daha sübut etdi.

Birbaşa xarici investisiya qoyan investorlar, investisiya qoyduqları ölklərdə olan müəssisələrin idarəedilməsində ölkə daxilində mövcud şəraitdən irəli gələn müxtəlif səbəblər üzündən müvəffəqiyyətsizliyə uğraya bilərlər. Bu baxımdan birbaşa xarici investisiya qoyuluşlarında qarşıya çıxan risklər kommersiya riski və ölkə riski olaraq iki yerə ayrılır.

Kommersiya riski - Kommersiya münasibətlərində olan xarici müəssisənin müxtəlif səbəblərə görə üzərinə düşən vəzifəni yerinə yetirə bilməməsi kommersiya riski adlanır. Belə vəziyyətdə xarici müəsssisənin keyfiyyəti, idarəetmə strukturu və maliyyə şərtləri birbaşa xarici investisiya fəaliyyətində olan müəssisə tərəfindən nəzərdən keçirilməli və dəyərləndirilməlidir.

Ölkə riski– Bu anlayış son vaxtlar daha mühüm əhəmiyyət kəsb etməyə başlamışdır. Ölkə riski, bütün borclanmalardan meydana gələn və kommersiya riski xaricində qalan, birbaşa investisiya qoyan ölkənin hökuməti və ya müəssisənin vəzifəni yerinə yetirə bilməməsi, yaxud bu istəkdə olmaması kimi başa düşülür. Başqa sözlə, ölkə riski investisiya qoyulan ölkədəki müəssisənin və ya əlaqədar müəssisələrin, eləcə də hökumətin vəzifələrini həyata keçirmə qabiiiyyətinə təsir edə biləcək gözlənilməz şərtlərin olma ehtimalıdır. Ölkə riski sadəcə siyasi risk olmayaraq, investisiya qoyulan ölkənin həm sosial, həm də iqtisadi amillərinin təsirinə məruz qalır. Buna görə də ölkə riskinin təhlilində iqtisadi və siyasi risk bir-birindən ayrılmamalı, əksinə, ölkə riskinin iqtisadi və siyasi proseslərin təsiri ilə əmələ gəldiyi əsas götürülərək mövzuya tam olaraq baxılmalıdır.

Bir çox İEÖ-də kommersiya banklarının innovasiya sahəsinə marağını artırmaq üçün dövlət riskin böyük hissəsini öz üzərinə götürür. Məsələn, ABŞ-da layihənin ölkə iqtisadiyyatı üçün əhəmiyyətinə müfaviq olaraq dövlət layihə üzrə götürülən kredit üzrə riskin 90%-nə qədərini öz üzərinə götürə bilər. Bundan əlavə dövlət innnovasiya və yeni texnologiyaların tətbiqi ilə bağlı layihələri maliyyələşdirən maliyyə təşkilatları üzrə güzəştli vergi siyasəti tətbiq edir.

Son dövrlərdə Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər görülmüş və bu beynəlxalq təşlilatlar tərəfindən aparılan qiymətləndirilmələrdə də öz əksini tapmışdır.

Dünya Bankı və Beynəlxalq Əmtəə dövriyyəsi Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən nüfuzlu "Doing Business 2009" hesabatında Azərbaycan dünyada ən islahatçı ölkə elan edilib. Ölkəmiz hesabatda 97-ci yerdən 33-cü pilləyə yüksəlib. Bu artım tempinə görə "Doing Business" hesabatları hazırlanan illər ərzində analoji yüksəliş qeydə alınmayıb. "Doing Business 2013" hesabatında Azərbaycan 189 ölkə arasında 70-ci yeri tutmuşdur. Hesabatda Azərbaycanın biznes mühiti üzrə əhəmiyyətli islahatlar apardığı və biznes mühitinin təkmilləşdirilməsinə xüsusi diqqət ayırdığı qeyd edilmişdir. FİAS-in 2013-cü il üzrə illik hesabatında göstərilir ki, Azərbaycan əmək bazarında bir sıra islahatlar həyata keçirmiş, geniş müəssisələr üçün korporativ idarəetməyə olan tələbi yüngülləşdirmiş, vergi formalarının elektron doldurulmasını reallaşdırmağa başlamışdır. Hökümət həmçinin mülkiyyət qeydiyyatı üzrə prosedurları sadələşdirərək (qeydiyyat müddəti 11 günə qədər azaldılmışdır), vahid pəncərə sistemini tətbiq etmişdir. İslahatların həyata keşirilməsindən sonrakı 4 ay müddətində qeydiyyatların həcmi 40%-dək artmışdır.

"Qlobal Rəqabətlilik Hesabatın"da Azərbaycan MDB ölkələri arasında 1-ci yer, makroiqtisadi mühitin stabilliyi altindeksi üzrə 139 ölkə arasında 13-cü yeri tutmuşdur.

Amillərin qiymətlərinin təyini və risklərin təhlili üçün tətbiq olunan metodların nəzərdən keçirilməsi əsasında belə nəticə çıxarmaq olar ki, göstərilən metodların hər birinin özünün üstünlükləri və onların imkanlarını məhdudlaşdıran nöqsanları vardır. Beləliklə, bütün növ risklərin təhlili üçün eyni dərəcədə münasib universal metod göstərmək çətindir.

Onu da qeyd etmək lazımdır ki, riskin dəyərləndirilməsi sistemi investora yalnız investisiya layihəsinin başlanğıcında kömək edə bilər. Riskin azaldılması üçün müəssisə fəaliyyət göstərəcəyi ölkə haqqında hərtərəfli informasiyaya malik olmalıdır. İlk baxışdan elə də ciddi görünməyən bir nüans sonda böyük itkilərə, hətta müəssisənin iflas vəziyyətinə düşməsinə gətirib çıxara bilər.

## 6. Azərbaycanın beynəlxalq ticarət və kapital hərəkətində iştirakı dinamikasının qiymətləndirilməsi.

Ölkədə iqtisadi inkişafın təmin olunmasında investisiya qoyuluşlarının həcmi və strukturu böyük rol oynayır. İnvestisiya ölkədə çəkilən xərclərin əhəmiyyətli hissəsidir və onun həcminin dəyişməsi məcmu tələbə təsir etməklə ölkədə məhsul və xidmətlər buraxılışının həcmini müəyyən edən amillərdən birinə çevrilir. Həm fiziki, həm də insan kapitalının yaradılması investisiya prosesində baş verir. Kapital yığımının artması nəticəsində isə ölkənin istehsal imkanları artır.

Azərbaycanda neft gəlirlərinin artması onun istehsal imkanlarının artırılması üçün iri həcmli investisiya qoyuluşlarını artırmağa imkan vermişdir.

1995-2002-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş investisiyanının 26,8 %-i daxili mənbələr hesabına həyata keçirilmişdirsə, 2005-ci ildə bu göstərici 31,3 %-ə, 2010-cu ildə 52,5 %-ə, 2012-ci ildə isə 60 %-ə, 2013-cü ildə isə 62,3%-ə qədər artmışdır.

Qeyd etmək lazımdır ki, ölkədə daxili investisiyaların həcminin artması əsasən dövlət investisiyalarının həcminin artımı hesabına baş vermişdir. Bunun əsas səbəbi isə son illərdə neft gəlirləri hesabına dövlət büdcəsinin gəlirlərinin artımasıdır. Əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının maliyyələşdirilməsində büdcə vəsaitlərinin payı 2000-ci ildə 2,3 faizdən 2009-cu ildə 35 faizə, 2010-cu ildə 32,8 %-ə, 2012-ci ildə isə 44,4 %-ə, 2013-cü ildə isə 45,3 %-ə yüksəlmişdir.

Son illərdə istehsal investisiyaları ilə müqayisədə xidmət sahələrinə investisiyaların üstünlük təşkil etməsi meyli müşahidə olunmuşdur. Əgər 2005-ci ildə onların pay göstəricilərinin nisbəti 26,1% və 73,9% kimi idisə, 2009-cu ildə bu proporsiya qeyri-istehsal investisiyalarının xeyrinə diametral dəyişmişdir – 54,3% və 45,7%, 2010-cu ildə isə müvafiq olaraq 51,3% və 48,7%, 2012-ci ildə isə müvafiq olaraq 53,3% və 46,7%, 2013-cü ildə isə müvafiq olaraq 50,8% və 49,2% təşkil etmişdir.

Azərbaycanda əsas kapitala yönəldilən xarici investisiyaların dinamikasının təhlili göstərir ki, 2000-2005-ci illəri əhatə edən dövrdə onlar ildən-ilə artırdı – bütövlükdə 7,2 dəfə. Lakin, sonrakı illərdə investisiya axını nəzərə çarpacaq dərəcədə azalmışdır (2,2 dəfədən artıq) və 2010-cu ildə 2005-ci ildəki 3,7 mlrd. manata qarşı yalnız cəmi 2,5 mlrd. manata yaxın təşkil etmişdir. Bu, əsasən, xeyli dərəcədə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinin başa çatması ilə bağlıdır. Azərbaycanda əsas investisiya axınları 2013-cü il üzrə sahə kəsiyində sənayeyə - 42%, nəqliyyat və anbar təsərrüfatına – 20%, daşınmaz əmlakla əlaqədar əməliyyatlara – 6,8% və kənd təsərrüfatına – 3,2% yönəldilir. Təxminən elə bu kimi proporsiyalar iri və orta müəssisələr tərəfindən investisiyaların qoyuluşu üçün xasdır, halbuki, kiçik müəssisələr üzrə aparıcı rol daşınmaz əmlakla əməliyyatlara yatırılan investisiyalara məxsusdur (sənaye üzrə 30,9%-ə qarşı 37,1%). Müsbət hal kimi, əsas kapitala yönəldilmiş məcmu investisiyaların tərkibində qeyri-neft sektorunun üstün payını hesab etmək olar – 2003-cü ildəki 26,8%-ə qarşı 2013-cü ildə 71,5% olmuşdur. Daxili investisiyalarda dövlət və özəl sektorların pay göstəriciləri qeyri-bərabər dəyişir və 2013-cü ildə onların nisbəti 76,2% və 23,8% səviyyəsində qərarlaşmışdır.

**AR-nın tədiyə balansı** (mln. ABŞ dolları)

**Cədvəl 1**

| | **2010-cu il** | **2011-ci il** | **2012-ci il** | **2013-cü il** |
|---|---|---|---|---|
| ***I.Cari əməliyyatlar hesabının saldosu*** | ***15039.6*** | ***17146.1*** | ***14916.3*** | ***12304.9*** |
| Xarici ticarət balansı | 19730.4 | 24328.4 | 22216.6 | 20620.8 |
| Xidmətlər balansı | -1732.9 | -2995.8 | -2923.8 | -4189.0 |
| Gəlirlər balansı | -3467.0 | -4859.8 | -4326.5 | -4120.6 |
| -İnvestisiya gəlirlərinin repatriasiyası | -3052.4 | -5148.8 | -4518.9 | -4190.3 |
| ***II.Kapitalın və maliyyənin hərəkəti hesabının saldosu*** | ***-4578.4*** | ***-4789.9*** | ***-9960.7*** | ***-6488.8*** |
| Birbaşa investisiyalar | | | | |
| - Azərbaycana cəlb olunmuş | 3347.3 | 4443.9 | 5289.4 | 6278.0 |
| - Xaricə yönəldilmiş | -232.0 | -554.0 | -1194.2 | -1477.9 |
| -İnvestisiyaların repatriasiyası | -2786.2 | -2977.3 | -3284.8 | -3661.0 |
| Kreditlər və digər investisiyalar | -4907.5 | -5722.5 | -10773.1 | -9958.6 |
| ***III.Tədiyə balansının ümumi saldosu (Ölkənin ehtiyat aktivlərinin dəyişməsi)*** | ***10461.2*** | ***12356.2*** | ***4955.6*** | ***3841.0*** |

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı

Tədiyə balansı məlumatlarının təhlili göstərir ki, Əvvəlki illərdə olduğu kimi 2013-cü ilin yanvar-dekabr aylarında da xarici iqtisadi əməliyyatlar neft-qaz sektoru üzrə müsbət saldoya, qeyri-neft sektoru üzrə isə mənfi saldoya malik olmuşdur.

Neft-qaz sektoru üzrə ümumi daxilolmalar əsasən neftin və təbii qazın ixracı və bu sektora cəlb edilən xarici kapitalın hesabına formalaşır. Bu sektor üzrə ödənişlər isə mənfəətin və investisiyaların repatriasiyasını, avadanlıqların və xidmətlərin idxalını əks etdirir. 2013-cü ilin yanvar-dekabr aylarında neft-qaz sektoru üzrə yaranmış ümumi müsbət saldo 22.4 mlrd. dollar olmuşdur. 2013-cü ilin yanvar-dekabr aylarında cari əməliyyatlar hesabında 12.3 mlrd. $ məbləğində profisit yaranmış, o cümlədən neft-qaz sektoru üzrə cari hesabın profisiti 22.1 mlrd.$ məbləğində olmuşdur. Neft-qaz sektorunun profisiti qeyri-neft sektoru üzrə cari hesabın 9.8 mlrd. dollarməbləğində kəsirini tam örtmüşdür.

Azərbaycan iqtisadiyyatında kredit axınlarının mövcudluğu valyuta axınlarının dövlət tənzimlənməsi, xarici iqtisadi fəaliyyət, Azərbaycanın bank sistemində tamamilə xarici, yaxud müştərək kapitala əsaslanan bank fəaliyyəti, dövlətin daxili və xarici borcunun idarəedilməsi, respublikanın beynəlxalq və regional iqtisadi, o cümlədən maliyyə qurumları ilə əməkdaşlığı ilə sıx bağlıdır və Azərbaycan iqtisadiyyatının inkişafının müasir mərhələsində onun əsas məqsədləri aşağıdakılar olmalıdır:

Birincisi, milli valyutanın əhəmiyyətinin güclənməsi və valyuta məzənnəsinə inflyasiya təzyiqinin azaldılması;

İkincisi, xarici valyutanın daxil olan axınının stimullaşdırılması və ixracatçılar tərəfindən valyuta mədaxilinin qaytarılmasına nəzarət edilməsi;

Üçüncüsü, xarici iqtisadi fəaliyyət subyektlərinin fəallığının stimullaşdırılması, yəni idxalı əvəz edən istehsalların inkişafını təmin edən sənaye məhsulları ixracının təşviq edilməsi və idxal üçün şəraitin yaradılması.

Ölkə iqtisadiyyatında son illər ərzində əsas kapitala yönəlmiş investisiyalar haqqında cədvəl 10-da məlumat verilmişdir.

**AR-da əsas kapitala yönəldilmiş investisiyalar (min. manat).**

**Cədvəl 2**

| | **Cəmi investisiyalar** | **o cümlədən:** | | |
|---|---|---|---|---|
| | | **tikinti-quraşdırma işləri** | **maşın, avadanlıq, alət və inventarlar** | **sair işlər** |
| **2005** | 5 769 876,3 | 3 109 701,8 | 1 350 767,0 | 1 309 407,5 |
| **2006** | 6 234 483,7 | 3 162 232,5 | 1 872 178,6 | 1 200 072,6 |
| **2007** | 7 471 189,9 | 3 856 588,6 | 2 022 220,3 | 1 592 381,0 |
| **2008** | 9 944 153,8 | 5 919 856,5 | 2 729 378,1 | 1 294 919,2 |
| **2009** | 7 724 944,8 | 5 183 035,5 | 1 474 052,7 | 1 067 856,6 |
| **2010** | 9 905 665,8 | 6 569 414,6 | 2 579 498,8 | 756 752,4 |
| **2011** | 12 799 061,3 | 7 834 848,1 | 2 380 228,8 | 2 583 984,4 |
| **2012** | 15 407 274,4 | 9 407 896,2 | 2 348 758,2 | 3 650 620,0 |
| **2013** | 17 850 815,7 | 11 837 485,4 | 2 222 662,9 | 3 790 667,4 |

Mənbə: Dövlət Statistika Komitəsi

Cədvəl 2-dən göründüyü kimi, 2005-2008-ci illər ərzində əsas kapitala yönəldilən investisiyaların həcmi artmışdır. Bu dövr ərzində onlar 9,9 mlrd. manatı üstələyərək, iki dəfədən artıq artmışlar, lakin, 2009-cu

ildə 22,3% azalmışlar (7,7 mlrd. manata kimi). Bu, ilk növbədə, istehsal sferasındakı investisiya axınlarının zəifləməsi ilə bağlıdır. 2010-cu ildə artım yenə bərpa olunmuşdur.

Son illərdə ümumi daxili məhsulun yüksək artımı şəraitində ölkənin daxili resurslarının formalaşmasında idxalın payı azalmışdır. Belə ki, idxalın ümumi daxili məhsula nisbəti 2000-ci ildə 38,4 faizdən 2009-cu ildə 23,5 faizə, 2010-ci ildə 12,5 faizə qədər azalmışdır. 2013-cü ildə isə 14,6% təşkil etmişdir. Bununla yanaşı, qeyd edilən dövrdə ixracın ümumi daxili məhsulda payı 2000-ci ildə 1,8 faizdən 2010-cu ildə 40,3 faizə qədər artmış, 2013-cü ildə isə 32,6 faiz təşkil etmişdir. Göründüyü kimi, son illərdə mövcud rusursların böyük hissəsi ixrac edilmişdir. Son illərdə ölkədə yaranan resursların əhəmiyyətli hissəsinin ixrac edilməsinə baxmayaraq daxili bazarın da həcmi əhəmiyyətli dərəcədə böyümüşdür. 2013-cü ildə ölkələr üzrə xarici investisiya axınlarının 35,9%-i Böyük Britaniyanın, 12,3%-i Norveçin, 11,8%-i ABŞ-ın, 9,3%-i Yaponiyanın, 7,5%-i Türkiyənin, 6,6%-i isə Çexiyanın payına düşür. Ölkə müəssisələrinə yatırılan məcmu xarici investisiyalardan beynəlxalq təşkilatların payına 5,8% düşür.

Ölkəyə investisiyaların cəlb edilməsi ilə yanaşı, artıq 10 ildən çoxdur ki, Azərbaycan başqa dövlətlərin iqtisadiyyatına sərmayə yönəltməklə investisiyalarını ixrac edən ölkələr arasında öz mövqelərini ilbəil möhkəmləndirir. Belə ki, 2013-cü ildə investisiyaların ixracı 1477,9 milyon dollar təşkil edərək 2010-cu ilin səviyyəsindən 6,4 dəfə çox olmuşdur.

**7. Azərbaycan iqtisadiyyatı üçün investisiya multiplikatoru və akseleratorunın hesablanması, eyni zamanda qeyri-neft sektoruna yönəldilən investisiyaların ixraca təsiri modelləri formalaşdırılmış və realizə edilmişdir;**

Milli iqtisadiyyatda investisiya yatırımlarının mühüm maliyyələşmə mənbələrini təşkil edən kapital axınları və xarici ticarətin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi müasir iqtisad elmində Keyns nəzəriyyəsi əsasında formalaşdırılan investisiya multiplikatoru və akseleratoru əsasında müəyyənləşdirilir. Bu əmsallar bir tərəfdən investisiyaların iqtisadi artıma təsirini ölçməyə, digər tərəfdən isə investisiya və xarici ticarət arasında, onlarla iqtisadi artım arasında korrelyasiya səviyyəsini ifadə etməyə imkan verir.

Multiplikator investisiya (dövlət və özəl) artımının istehsal (və gəlir) artımına necə təsir etməsini göstərir. Keyns istehsalın genişlənməsinin investisiyanın artımı vasitəsilə həyata keçirilməsini, bunun da əlavə işçilərin cəlb olunmasına səbəb olacağını göstərməklə məşğulluğun, milli gəlirin və istehlakın yüksəlməsi prosesini şərh etmişdir.

Belə ki, məşğulluğun ilkin yüksəldilməsi yeni investisiyaların tətbiqi ilə baş verir. Sonradan əlavə cəlb olunan işçilərin tələbinin ödənilməsi, əlavə məşğulluğun artımı baş verir. Əlavə məşğulluğun artımı əmsalını - K= Uw/ Yw (K-multiplikator əmsalı, Uw-gəlirin artımı, Yw-investisayanın artımını göstərir) Keyns multiplikator adlandırmışdır.

Aparılan elmi tədqiqatlar sübut edir ki, dünyanın inkişaf etmiş ölkələrində multiplikator əmsalı 2 və 3 arasında tərəddüd edir. 80-cı illərdə ABŞ iqtisadiyyatında investisiyaların artımı 2,5 dəfə milli gəlirin artımına səbəb olmuşdur. Multiplikatorun ümumi effekti özünü dərhal göstərmir, müəyyən period boyunca baş verir. Amerikanın ötən əsrin 20-ci illərinin iqtisadiyyatı göstəricilərinə görə ilkin effektin sönməsi il yarım, iki il davam etmişdir.

Gəlirlərin artımının kapital qoyuluşuna təsiri isə akselerator əmsalı ilə qiymətləndirilir. Yəni, akselerator gəlirlərin artımının kapital qoyuluşunun yüksəldilməsi meyli ilə xarakterizə olunur. Hesab olunur ki, sahibkarların əldə etdiyi gəlir artdıqca onların investisiya qoyuluşlarını artırmaq meyli də yüksəlir. Gəlirin artması multiplikatorun müəyyənləşdirdiyi həddi qısa müddətə keçə bilər. Bu, akseleratorla multiplikatorun qarşılıqlı təsirindən irəli gəlir. İlkin olaraq investisiyanın müstəqil (avtonom) artımı baş verir. Bu, multiplikatorun qiymətinə vurulmuş şəkildə gəlirin artmasına səbəb olur. Gəlirin göstərilən artımı sonradan investisiyanın artmasını doğura bilər. Artan gəlirin hər dollarının investisiyanı artırdığı ədədi vuruq akselerasiya əmsalı və ya sadəcə akselerator adlanır.

Pol Samuelson və Con Xiks modelinə görə investisiya akseleratoru multiplikatorun məlum effekti ilə birləşərək multiplikator-akselerator effekti yaradır.

Akseleratorun təsirini nəzərdə tutan kumulyativ (toplanma) prosesinin də müəyyən sərhədləri olur. Əgər istehlaka limit meyilliliyi vahidə bərabər olarsa, multiplikatorun genişlənməsi, inkişafı fasiləsiz təsirə aparıb çıxara bilər. Həqiqətdə isə qənaətə müsbət limit meyilliliyinin mövcudluğu bu prosesi dayandırır. Lakin akseleratorla multiplikatorun fəaliyyəti uyğunlaşdıqda, akselerator əmsalı çox yüksək olduqda, eləcə də istehlaka yüksək səviyyədə meyilliliklə müşaiyət olunduqda uzunmüddətli partlayış formalı ekspansiyalar baş verir. Partlayış səciyyəli ekspansiya o vaxtadək baş verir ki, bütün mövcud işçi qüvvəsi tam şəkildə istifadə olunsun. Qeyd edilən nöqtədə istehsal əyrisi bərabərləşir və akseleratorun stimullaşdırdığı investisiya azalır.

Dövrün bu şəkildə inkişafının nəzəri mümkün halı haqqında müəyyən təsəvvür əldə etmək üçün belə hesab edək ki, istehsal ehtiyatlarının genişlənməsinin heç bir sərhəddi yoxdur. Onda proses heç

bir xarici sərhədlə qarşılaşmır. Məsələn, ilkin bazis gəliri 100 mlrd dollar qəbul edək və ona həmişə eyni səviyyədə saxlanılan 10 mlrd dol. məbləğində avtonom investisiya əlavə olunmasını fərz edək. İstehlaka limit meyilliliyini 2/3-yə, akselerasiya əmsalını isə 2-yə bərabər götürək. Stimullaşdırılmış investisiyanın, istehlak həcminin və gəlirin bazis dövrünün müvafiq kəmiyyətindən meyillilik həcmini ardıcıl dövrlərdə baş verə biləcək dəyişmələri 4-cü cədvəlin 2, 3 və 4-cü sütunlarında göstərilmişdir.

**Multiplikator və akseleratorun qarşılıqlı təsiri (mlrd. dol.)**

**Cədvəl 3**

| Period | Avtonom investisiya (bazis dövründən sürüşmə) | Stimullaşdırılmış istehlak (bazis dövründən sürüşmə) | Stimullaşdırılmış investisiya (bazis dövründən sürüşmə) | Gəlirin cəm sürüşməsi (bazis dövründən) **(2+3+4)** |
|---|---|---|---|---|
| Bazis dövrü | 0,0 | 0,0 | 0,0 | 0,0 |
| 1 | 10,0 | 0,0 | 0,0 | 10,0 |
| 2 | 10,0 | 6,7 | 13,4 | 30,1 |
| 3 | 10,0 | 20,0 | 26,6, | 56,6 |
| 4 | 10,0 | 37,8 | 35,6 | 83,4 |
| 5 | 10,0 | 55,6 | 35,6 | 101,2 |
| 6 | 10,0 | 67,5 | 23,8 | 101,3 |
| 7 | 10,0 | 67,6 | (-0,2) | 77,4 |
| 8 | 10,0 | 51,6 | (-10,0) | 51,6 |
| 9 | 10,0 | 34,4 | (-10,0) | 34,4 |
| 10 | 10,0 | 22,9 | (-10,0) | 22,9 |
| 11 | 10,0 | 15,2 | (-10,0) | 15,2 |
| 12 | 10,0 | 10,1 | (-10,0) | 10,1 |
| 13 | 10,0 | 6,7 | (-6,8) | 9,9 |
| 14 | 10,0 | 6,6 | 0,2 | 16,8 |

Multiplikator-akselerator effekti iqtisadi sistemin öz-özünü mühafizə edən dövri dəyişmə mexanizmini ifadə edir. İnvestisiyanın müəyyən kəmiyyətə qədər artımı milli gəliri multiplikator effekti nəticəsində çoxqat böyük kəmiyyətə qədər artıra bilir. Artan gəlir isə öz növbəsində gələcəkdə akseleratorun təsiri ilə investisiyanın qabaqlayıcı artımını doğurur. Bu törəmə investisiyalar məcmu tələbin elementi kimi növbəti multiplikasiya effektini əmələ gətirir. Nəticədə yenidən gəlir artır və sahibkarları yeni investisiyalar qoymağa cəlb edir.

Multiplikator səmərəsini ilkin olaraq ictimai işlərin təşkil olunması ilə məşğulluğun yüksəldilməsi timsalında göstərmişdir. İctimai işlərin genişləndirilməsi ilə məşğulluğun artımının ictimai işlərə cəlb olunacaq işçilərin artımından qat-qat üstün artacağı müşahidə olunur. Bu

isə sahələrarası qarşılıqlı əlaqənin mövcud olmasından asılıdır. Məsələn, dəmir yollarının salınması üçün cəlb olunmuş işçilərin istehlak şeylərinə olan tələbatları artacaqdır. Bu da öz növbəsində həmin sahələrdə istehlak şeyləri istehsalını genişləndirməklə əlavə məşğulluğa və həmin sahənin digər sahələrin məhsullarından asılı olduğu üçün orada istehsalın və əlavə məşğulluğun artmasına səbəb olacaq. Bu zəncirvari qarşılıqlı əlaqənin gedişatı ilkin multiplikator səmərəsindən asılıdır.

Multiplikator və akseleratorun mütləq və nisbi qiymətlərinin hesablanması ilə Azərbaycan iqtisadiyyatında baş vermiş proseslər, əsas iqtisadi göstəricilərin dəyişmə xüsusiyyətlərinə dair riyazi araşdırmalar aparılmışdır.

Bunun üçün verilmiş rəqəmlər əsasında ÜDM (y) və istehlak (J), investisiya (I) və idxal (Z) arasında xətti asılılıq qurulmuşdur. Hər bir asılılıq üçün xətti trendlər qurulur.

Akseleratorun qiymətini hesablamaq üçün zamana görə gecikmə nəzərə alınmaqla, investisiyanın ÜDM artımından xətti asılılığı qurulur. Hesablamalara əsasən akseleratorun qiyməti vahiddən kiçik alınır. Bu akselerasiya (gəlirin artması hesabına investisiyanın çoxqat artımı) prinsipinin ödənilmədiyini göstərir.Bunun ən sadə izahı inflyasiya tempinin yüksək olması, mal ehtiyatlarının və istifadə edilməyən istehsal güclərinin olmasıdır.

Göstəricilər arasındakı riyazi asılılıqları təhlil edərkən müəyyənləşdirilmişdir ki, 1995-2003-cü il ərzində qoyulmuş hər bir manat investisiya 3.3 manat gəlir gətirmişdir. İnvestisiyanın 1 % artımı ÜDM-nin 0.49% artımına səbəb olur.

1995-2010 cu illər ərzində qoyulmuş hər bir manat investisiya 4.4 manat gəlir gətirmişdir. İnvestisiyanın 1 % artımı ÜDM-nin 1.96% artımına səbəb olur.

Hər iki xarakteristikadan istifadə edərək bu sahə üzrə ölkədəki vəziyyət haqqında bəzi fikirlər irəli sürmək olar. Ən başlıcası qeyd etmək olar ki, hər vahid investisiyanın gətirdiyi gəlir son illərdə bir qədər də yüksəlmişdir.

Multiplikator modelinin təhlili üçün həm nisbi, həm də mütləq kəmiyyətlərdən istifadə etmək olar. Bundan başqa, bu modelin hansı şəraitdə tətbiqi nəzərə alınmalıdır. Multiplikator modeli daha çox iqtisadi vəziyyətin izahı üçün məlumatlar əldə etməyə əsas verir.

Tədqiqat işində eyni zamanda, ekonometrik üsullarla ixracın qeyri-neft sektoruna yatırılan investisyalardan asılılığı müəyyənləşdirilmişdir və qurulmuş modelin adekvatlığı müxtəlif testlərlə təsdiqlənmişdir. Cədvəl 4-də modelin xarakteristikaları verilmişdir.

**Cədvəl 4.**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LNIX | | | | |
| Method: Least Squares | | | | |
| Date: 12/02/11 Time: 13:29 | | | | |
| Sample: 1995 2010 | | | | |
| Included observations: 16 | | | | |
| Convergence achieved after 3 iterations | | | | |
| MA Backcast: 1992 1994 | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| LNINV | 0.97227 | 0.064621 | 15.04573 | 0 |
| C | 1.212417 | 0.46936 | 2.583125 | 0.0227 |
| MA(3) | -0.844822 | 0.149565 | -5.64851 | 0.0001 |
| | | | | |
| R-squared | 0.94833 | Mean dependent var | | 7.996126 |
| Adjusted R-squared | 0.94038 | S.D. dependent var | | 1.324842 |
| S.E. of regression | 0.323488 | Akaike info criterion | | 0.748052 |
| Sum squared resid | 1.36038 | Schwarz criterion | | 0.892912 |
| Log likelihood | -2.984416 | Hannan-Quinn criter. | | 0.75547 |
| F-statistic | 119.2977 | Durbin-Watson stat | | 2.314112 |

Qeyd edək ki, modelin asılı (ixrac (İNİX)) və izah edici dəyişənləri (qeyri-neft sektoruna investisyalar (LNİNV)) logorofimik götürülmüşdür və buna görə də modelin izahı faizlə verilmişdir.

**LNİX = 1.21+0.97LNİNV**

Yuxarıdakı bərabərliyindən belə nəticəyə gəlmək olar ki, qeyri-neft sektoruna investisyanın 1% artımı ixracın 0.97% artımına səbəb olur.

Ümumiyyətlə, investisiya siyasətinin müvəffəqiyyətlə reallaşdırılması Azərbaycanda investisiya resurslarının müxtəlif mənbələrindən səmərəli istifadə olunmasından asılıdır. Beləliklə, yeni iqtisadi şəraitdə neft-qaz sektorundan qeyri neft-qaz sektoruna keçidi həyata keçirmək üçün ilk növbədə investisiya mənbələrinin etimadını qazanmaq, xarici ölkələrin neft-qaz sektorunda apardıqları investisiya siyasəti təcrübəsindən geniş istifadə etmək, TMK-ın qeyri-neft sektoruna investisiya qoyuluşlarını stimullaşdırmaq lazımdır.

**Dissertasiya işinin əsas müddəaları və işdən irəli gələn praktik təkliflər müəllifin aşağıdakı elmi işlərdə öz əksini tapmışdır:**

1. **Babayev T.S.** Dövlətin investisiya siyasəti və onun tənzimlənməsi problemləri // "İqtisadiyyat xəbərləri" rüblük elmi-metodiki jurnal, 2009/N 2, səh.182-185, Bakı, "ELM".

2. **Babayev T.S.** Kapitalın beynəlxalq miqrasiyasının müasir konsepsiyalarının təhlili və Azərbaycanın investisiya siyasətinin nəzəri bazasının formalaşdırılması// "İqtisad elmləri: nəzəriyyə və praktika" rüblük nəzəri və elmi-praktiki jurnal, 2010/N3, səh.198-205, Bakı, İqtisad Universiteti nəşriyyatı.

3. **Babayev T.S.** Xarici iqtisadi fəaliyyətin səmərəli təşkilində investisiya amilinin rolu // Azərbaycan Milli Elmlər Akademiyası, İqtisadiyyat İnstitutu "Elmi əsərlər" IV buraxılış 2011, səh.138-144 Bakı, AMEA-nın İqtisadiyyat İnstitutu.

4. **Babayev T.S.** Müasir şəraitdə investisiyaların diversifikasiyasında risk amilinin qiymətləndirilməsi// Azərbaycan Elmi Tədqiqat, Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu "Elmi əsərlər" IV buraxılış 2011, səh.298-305 Bakı, "Şərq-Qərb ASC" nəşriyyatı.

5. **Бабаев Т.С.** Роль инвестиционной политики в экономическом развитии Азербайджана // Материалы II Всероссийской научно-практической конференции «Инновация-наука образование: вызовы современного общества» стр. 55-60, Дагенстанский государственный технический университет, Дербент 2011-й год.

6. **Babayev T.S.** Azərbaycanda innovasiya texnologiyalarının inkişafı, bu sahə üzrə investisiya qoyuluşlarının stimullaşdırılması yolları və mövcud olan problemlər. // Korporativ idarəetmə və iqtisadiyyatın innovasiya inkişafı. Beynəlxalq elmi-praktiki konfransın materialları, səh. 137-140, Bakı şəhəri 31 mart 2011-ci il.

7. **Бабаев Т.С.** Влияние инвестиционного климата на экономическое развитие Азербайджана // журнал «Теоретические и практические аспекты экономики и интеллектуальной собственности» выпуск 1, том 2, стр. 207-213, г. Мариуполь 2012-й год.

8. **Babayev T.S.** Müasir dövrdə Azərbaycanın investisiya siyasətinin əsas istiqamətləri: problemlər və perspektivlər// Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, səh.394-396, Bakı, Mütərcim 2013.

**Турал Сохбат оглы Бабаев**

## Роль инвестиционного фактора в расширении внешней торговли Азербайджана

В работе исследуется роль инвестиционного фактора в расширении внешней торговли Азербайджанской Республики, дается описание типичных особенностей, с целью оптимизации этого процесса, важность под патронажем государства, а так же предлагается механизм регулирования.

Структура диссертации состоит из введения, трех глав, заключения, списка использованной литературы и графических материалов.

Актуальность темы обосновывается во вводной части научной работы выражается цели и задачи научного исследования, трактуется теоретическое и практическое значение исследоаания.

Первая глава диссертации под названием "Теоретические и методологические основы взаимодействия между международной торговлей и потоков капитала" состоит из трех тематических пунктах. В этой главе анализируются основные факторы и направления взаимодействия между международной торговлей и потоков капитала и механизмов либерализации.

Во второй главе под названием "Роль инвестиционной политики в расширении внешней торговли" исследуеться влияния инвестиционного климата на расширение внешней торговли, необходимость его совершенствования, инвестиционные риски и способы его снижения, инвестиционная политика правительства и его регулирования, отображаются текущие проблемы,

Последняя глава научной работы называется "Инвестиции как решающий фактор в расширение внешней торговли". В этой главе анализируються особенности участия Азербайджана во внешней торговле и инвестиционных движений, роль внешней торговли и инвестиций в обеспечении устойчивого развития, динамика участия Азербайджана во внешней торговле и инвестиционных движений. Также рассчитываются инвестиционный мультипликатор и акселератор для экономики Азербайджана, форматируется модель эффекта ненефтяных инвестиций на экспорт Азербайджана.

Основные выводы, результаты и положения исследования приведены объяснения о проблемах и направлениях, отмеченных в главах резюме дипломной работе.

**Tural Sohbat Babayev**

## The role of investment factor in expansion of foreign trade of Azerbaijan

The role of investment factor in expansion of foreign trade of Azerbaijan Republic is investigated, given the description of typical peculiarities, for the purpose of optimization of this process, importance under the patronage of state is stressed and as well as mechanism of regulation is offered.

Text structure of thesis is consisted of introduction, three chapters, conclusion, list of used literature and graphic materials.

Theme urgency is substantiated in the introduction part of scientific work, aims and objectives of scientific investigation, scientific innovation, basic provisions are is expressed, it's scientific, theoretical and practice importance is given an explanation.

The first chapter of thesis named "The theoretical and methodological foundations of the interaction between international trade and capital flows" consists of three thematic paragraphs. The main factors and directions of interaction between international trade and capital flows and liberalisation mechanisms are analysed. Dispite of a strong link between international trade and investment flows, some discrepancy between international regulatory mechanisms of these fields is appointed.

İt is spoken about the impact of investment climate in expansion of foreign trade, necessity of its improvement, investment risk and the ways of reducing it, investment policy of government and its regulation, analyses of existing problems are investigated in the second chapter named "The role of investment policy in expansion of foreign trade". The factors forming the investment climate are analysed.

The last chapter of scientific work is called "Investments as a decisive factor in expansion of foreign trade". Features of precense of Azerbaijan in foreign trade and investment movements, the role of foreign trade and investments in ensuring steady development, dynamics of precense of Azerbaijan in foreign trade and investment movements are analysed in the chapter. Also investment multiplicator and accelerator for Azerbaijan economy calculated, model of the effect of non-oil investments on export is formated and realised.

Main conclusions, results and provisions of researches are given an explanation on problems and directions noted in the chapters of summary of thesis work.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

**НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИЙ ИНСТИТУТ
ЭКОНОМИЧЕСКИХ ИССЛЕДОВАНИЙ**

---

***На правах рукописи***

**ТУРАЛ СОХБАТ ОГЛЫ БАБАЕВ**

# РОЛЬ ИНВЕСТИЦИОННОГО ФАКТОРА В РАСШИРЕНИИ ВНЕШНЕЙ ТОРГОВЛИ АЗЕРБАЙДЖАНА

Специальность: 5312.01 – «Отраслевая экономика»

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени
доктора философии по экономике

**БАКУ – 2014**

**Kağız formatı 60x84 1/16**
**Həcmi 1,5 ç.v. Sayı 100**

**İqtisad Universiteti nəşriyyatı**
**AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6**